# Azərbaycan Ukraynaya humanitar yardımın növbəti hissəsini yola salıb

**Bu gün Ukraynaya elektrik avadanlıqlarından ibarət humanitar yardımın ikinci hissəsi Sumqayıt Texnologiyalar Parkının ərazisindən yola salınıb.**







AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin 5 fevral 2025-ci il tarixli sərəncamına əsasən, sözügedən yardımın təşkili məqsədilə bir milyon dollar manat ekvivalentində vəsait ayrılıb və yardımın birinci hissəsi 7 fevralda göndərilib.

Jurnalistlərə açıqlamasında Energetika Nazirliyinin şöbə müdiri Ələsgər Həsənov bildirib ki, adıçəkilən sərəncam çərçivəsində iki hissədə göndərilmiş humanitar yükə ümumilikdə 52 min metrdən çox elektrik kabeli və naqil, habelə 17 ədəd transformator daxildir. Onun sözlərinə görə, Ukrayna tərəfindən daxil olmuş müraciətə əsasən, qeyd edilən avadanlıqlar müharibədən zərərçəkmiş ərazilərin elektrik enerjisi ilə dayanıqlı təchizatının bərpası üçün nəzərdə tutulur.

Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevin bildirib ki, İrpen şəhərinin bərpa olunmasında, xəstəxananın və məktəbin yenidən qurulmasında Azərbaycanın böyük dəstəyi var: "Azərbaycan Prezidenti İlham Əliyevə, Energetika və Xarici İşlər nazirliyinə enerji sistemimizin bərpası üçün göstərilən humanitar yardıma görə minnətdarlığımızı bildiririk. Biz bunu çox yüksək qiymətləndiririk və Azərbaycandan aldığımız dəstəyi heç vaxt unutmayacayıq. Azərbaycandan olan dostlarımız və tərəfdaşlarımızla birlikdə yeni layihə üzərində çalışırıq. Layihənin bu il başlayacağını gözləyirik. Bu, Laçın şəhəri ilə qardaşlaşmış şəhər olan İrpendə uşaqlar üçün incəsənət, idman məktəbi və digər sosial infrastrukturla bağlı layihədir. Ötən il İrpen şəhərinin meri Azərbaycana səfər edib və biz Azərbaycanın bəzi regionları ilə daha geniş regionlararası əməkdaşlıq edəcəyimizə ümidvarıq. Yaşasın Ukrayna, yaşasın Azərbaycan!"

Xatırladaq ki, mövcud vəziyyətlə əlaqədar Azərbaycan tərəfindən Ukraynaya göstərilmiş yenidənqurma və humanitar məqsədli yardımların ümumi məbləği 40 milyon dolları keçib. Bu günədək elektrik avadanlıqları qismində 134 ədəd transformator və komplekt transformator məntəqəsi, 70-ə yaxın generator, habelə təxminən 3,4 milyon metr elektrik kabeli və naqil humanitar yardım kimi Ukraynaya yola salınıb.

Azərbaycan.- 2025.- 13 fevral (№32).- S.8.